# Azərbaycan xalqı qalib ölkənin prezidentini seçəcək

Prezident İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, 2024-cü il fevralın 7-də ölkədə növbədənkənar prezident seçkiləri keçiriləcək. Təyin edilmiş prezident seçkiləri ölkə tarixinin ən qürurverici seçkisi kimi yadda qalacaq. Müstəqillik tariximizdə ilk dəfə olaraq, seçkilər bütün ölkə ərazisini əhatə edəcək.

2020-ci ilin payızında 44 günlük ikinci Qarabağ müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tariximizə şanlı Zəfər salnaməsi yazdı. Şücaətli, qəhrəman Azərbaycan oğulları işğalçı Ermənistanın silahlı qüvvələrini cəbhədə, döyüş meydanlarında məğlubiyyətə uğratdılar. Otuz ilə yaxın yağıların əsarətində qalan Vətən torpaqlarına azadlıq bəxş olundu. Ancaq təcavüzkar düşmən Azərbaycanın Qarabağ bölgəsində məkrli əməllərini davam etdirdi. Ötən ilin sentyabrında aparılan lokal xarakterli antiterror tədbirləri zamanı peşəkar Azərbaycan Silahlı Qüvvələri həmin ərazilərimizdə qalmış Ermənistanın silahlı qüvvələrinin hissələrini və separatçıları məğlub etdi. Beləliklə, Azərbaycanın suverenliyi tam bərpa olundu. Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində qeyd etdi ki, sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi: "istər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin elə bil ki, son nidası idi. Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq. Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır". Fevralın 7-nə təyin olunmuş prezident seçkiləri məhz belə bir vaxtda, müasir tariximizin yeni dövrünə qədəm qoymuş Azərbaycanda keçiriləcək. Yerli televiziya kanallarına müsahibəsində ona ünvanlanan "Cənab Prezident, həmkarlar yəqin ki, Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı sualları davam etdirəcəklər. Amma mən mövzudan bir qədər kənara çıxmaq və bu gün ictimaiyyəti düşündürən digər bir mövzuya keçid almaq istərdim. Bu, növbədənkənar prezident seçkiləri ilə bağlıdır. Məlumdur ki, bu il fevralın 7-nə təyin olunub və müxtəlif fikirlər, müxtəlif versiyalar səslənir. Amma ən doğru cavabı Sizdən ala bilərik. Cənab Prezident, belə bir addımın atılmasını şərtləndirən əsas amillər nədən ibarətdir?" sualına cavabında dövlət başçısı məsələyə aydınlıq gətirərək əsas səbəbləri açıqladı. Qeyd etdi ki, birinci səbəb təbii ki, suverenliyimizin tam bərpasıdır, çünki seçkilər bir dövrə yekun vurur. Dövlət başçısı bildirdi ki, sentyabr ayında biz elə bir dövrə yekun vurmuşuq ki, bu, epoxal bir hadisədir: "Yeni Azərbaycanın çoxəsrlik tarixində mən hesab edirəm ki, buna oxşar zəfər olmamışdır. Bütün amilləri - siyasi, hərbi və 30 illik işğalı, ərazinin relyefini, müdafiə xətlərinin çox olmasını nəzərə alsaq, hesab edirəm ki, bu, xalqımızın, dövlətimizin ən parlaq Qələbəsidir. Təbii ki, bu yeni dövr başlayarkən, əlbəttə, prezident seçkiləri də bu yeni dövrün başlanğıcı olmalıdır. Çünki hər bir dövr bir zaman kəsiyidir və 30 il ərzində işğal altında olmuş ərazilərin işğaldan azad edilməsi və suverenliyi tam bərpa etməyimiz yeni dövrün başlanğıcı idi. Bu, birinci səbəbdir". Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində diqqətə çatdırdı ki, ikinci səbəb isə ilk dəfə olaraq, müstəqil həyatımızda seçkilərin ərazilərimizin hər bir yerində keçirilməsidir: "Prezident seçkiləri bütün digər seçkilərlə müqayisədə ən vacib seçkilər olduğu üçün mən hesab etdim ki, birinci bütün ərazilərdə keçiriləcək seçkilər prezident seçkiləri olmalıdır. Əgər biz seçkiləri vaxtında, yəni 2025-ci ilin aprelində keçirməli olsaydıq, o zaman bələdiyyə seçkiləri daha tez keçiriləcəkdi. Mən hesab etdim ki, bu, düzgün olmaz. Azad edilmiş ərazilərdə və ölkəmizin hər bir yerində prezident seçkiləri birinci seçkilər olmalıdır". Dövlət başçısı İlham Əliyev qeyd etdi: "Digər səbəb ondan ibarətdir ki, mənim Prezident kimi fəaliyyətimin 20 ili tamamlandı. Bu da bir dövrdür və bunu da biz bir yekun kimi qəbul etməliyik və 20 ildən sonra yenidən prezident seçkilərinin keçirilməsi təbii ki, bu xronoloji dövrü də əsaslandırmış olur. Yəni əsas səbəblər bunlardır. Amma mən bu səbəbləri, bu sıralamanı əhəmiyyət üzrə etmişəm. Birinci səbəb, əlbəttə ki, yeni dövrün başlanğıcıdır və prezident seçkiləri bu yeni dövrə də xeyir-dua verəcəkdir". Sevindirici, qürurverici ki, qarşıdan gələn növbədənkənar prezident seçkilərində Azərbaycan xalqı artıq dövlətinin ərazilərinin iyirmi faizi Ermənistanın işğalı altında qalmış xalq kimi iştirak etməyəcək. Dövlətinin ərazi bütövlüyü tam bərpa edilmiş qalib xalq olaraq seçkilərə gedəcək. Budəfəki



prezident seçkiləri otuzillik işğalına son qoyulmuş, azad günlərinə qovuşmuş, düşmənin vurduğu yaraları sarman, vandalların xarabalığa çevirdikləri yaşayış məskənlərində tikinti işləri aparılan, yeni yollar çəkilən, infrastrukturlar yaradılan Şuşada, Laçında, Xocalıda, Zəngilanda, Qubadlıda, Cəbrayılda, Kəlbəcərdə, Füzulidə, Xankəndidə və digər rayonlarımızda da keçiriləcək. Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində Azərbaycan xalqı öz qalib ölkəsinin prezidentini seçəcək.

**"Azərbaycan"**

# İqtisadi inkişafın əsas hədəfi - sosial rifah

***Təkcə son 5 ildə ölkə üzrə əməkhaqqı fondu 2,7, ünvanlı sosial yardımın aylıq məbləği 3 dəfə artıb***

Hər bir ölkənin iqtisadi inkişafı əhalisinin rifahı, vətəndaşının firavanlığı ilə ölçülür. Bu mənada Prezident İlham Əliyevin həyata keçirdiyi milli inkişaf strategiyası, reallaşdırdığı islahatlar Azərbaycanın qüdrətli iqtisadiyyata və orduya, dünya birliyində mötəbər mövqeyə sahib olması ilə yanaşı, həm də güvənli sosial siyasətə malik bir ölkəyə çevrilməsi ilə nəticələnib.

Faktlara müraciət edək: son 5 il ərzində həyata keçirilən çoxmiqyaslı və çoxşaxəli sosial islahat proqramları sayəsində Azərbaycanda orta aylıq əməkhaqqı 80 faizədək, median əməkhaqqı 2,2, əməkhaqqı fondu isə 2,7 dəfə artıb. Azərbaycan dövlətinin siyasətində məşğulluq ana xətdir. Məşğulluq təmin edilmədən ölkə iqtisadiyyatı inkişaf edə, əhalinin rifahı təmin oluna bilməz. Dövlət başçısı tərəfindən həyata keçirilən islahatlara, müxtəlif tədbirlərə, qəbul edilən proqramlara nəzər saldıqda bütün tədbirlərin əhalinin rifahına, onun həyat şəraitinin daha da yaxşılaşmasına, o cümlədən məşğulluğun genişləndirilməsinə yönəldiyini görürük. Məlumdur ki, ünvanlı sosial yardım aztəminatlı ailələrə dövlət tərəfindən göstərilən pul yardımıdır. Son beş ildə ünvanlı sosial yardımın aylıq məbləği 3 dəfə artıb. Ümumilikdə ötən 20 ildə isə hər ailəyə düşən orta aylıq məbləğdə 11 dəfə artım olub.

2018-ci ildə yenidən Prezident seçilən İlham Əliyev andiçmə mərasimində demişdir: "Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar". Bu sözlər dövlət başçısının sosial islahatlarla bağlı verdiyi qanun və sərəncamların ana xəttini təşkil etməklə yanaşı, həm də gələcək proqramların, layihələrin anonsu idi. Hər il həm əməkhaqlarında, həm də sosial təminatın növləri üzrə ödənişlərdə artımlar müşahidə olunması isə həmin anonsların reallaşmasıdır.

Dövlət başçısının sosial sahəyə olan diqqət və qayğısı onu deməyə əsas verir ki, ölkəmizin son 20 ildə qazandığı iqtisadi uğurların nəticəsi əhalinin güzəranının yaxşılaşmasında özünü göstərir. Yenə də faktlara nəzər salaq: son 20 ildə sosial müdafiə və sosial təminat xərclərində 20, minimum əməkhaqqında 38, minimum pensiyada 14, orta aylıq əməkhaqqında 12, orta aylıq pensiyada 18, yaşa görə orta aylıq pensiyada 19, pensiya üzrə ödənilən illik vəsaitdə 30 dəfədən çox artım olub. Hər ilin əvvəlində pensiyaların və fərdi hesablardakı pensiya kapitallarının indeksləşdirilərək artırılması da diqqətçəkən məqamlardandır. Hazırda yaşa görə orta aylıq pensiyanın məbləği (467 manat) pensiyaçılar üçün yaşayış minimumundan (199 manat) 2,3 dəfə çoxdur. Xalis minimum aylıq əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbəti isə 2003-cü ildəki 11,7 faizdən 2018-ci ildə 26,5, bu ilin əvvəlində isə 41,1 faizə çatıb. 2018-2023-cü illərdə orta aylıq pensiya 208 manatdan 437, yaşa görə orta aylıq pensiya 234 manatdan 467 manata, orta aylıq əməkhaqqı 545 manatdan 921 manata çatıb. Median əməkhaqqında 2,2, əməkhaqqı fondunda 2,7, sosial müavinət və təqaüd ödənişlərində 5 dəfə artıma nail olunub. Ehtiyac meyarı 130 manatdan 246, yaşayış minimumu 173 manatdan 246 manata çatdırılıb.

Ölkəmizdə əlillərə, sağlamlıq imkanları məhdud və valideyn himayəsindən məhrum olan uşaqlara diqqət və dəstəyin artırılması sosial ədalətin təcəssümüdür. Məsələn, 12 reabilitasiya və sosial xidmət müəssisəsinin əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilməsini, Qəbələdə Uşaq Reabilitasiya Mərkəzinin açılmasını sosial ədalətin təzahürü kimi dəyərləndirmək olar. Bu ilin 11 ayında 78 min 900 nəfər əlilə reabilitasiya xidmətləri göstərilib, 9 min 700 şəxsə 80 min 800 reabilitasiya vasitəsi verilib. Qarşıdakı dövrdə reabilitasiya mərkəzləri şəbəkəsi Azərbaycanın bir çox ərazilərini əhatə edəcək. Quba, Ağcabədi, Kəlbəcər, Şamaxı rayonlarında belə mərkəzlərin açılması nəzərdə tutulub.

Əhalinin ən həssas təbəqəsi şəhid ailələri, qazilərdir. Son islahat paketində bu insanlara verilən təqaüd və müavinətlərin artımı önə çəkilib. Şəhid ailələrinin, qazilərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onlara ev tikmək üçün torpaq sahəsinin və fərdi mənzillərin verilməsi üçün dövlət başçısının tapşırığı ilə çox mühüm addımlar atılır. Prezidentin göstərişi ilə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı sosial dəstək proqramı hazırlanıb. Proqram çərçivəsində qeyd olunan kateqoriyadan olan 126 min şəxs sosial dəstək yönümlü 322 min xidmətlə təmin edilib.

2007-ci ilin əvvəlindən şəhid ailələri, 2008-ci ilin sentyabrından isə müharibə ilə əlaqədar əlilliyi olan şəxslər Prezidentin aylıq təqaüdü ilə təmin edilirlər. Həmin təqaüdlərin məbləği ötən dövrdə şəhid ailələri üçün 6 dəfə artırılaraq 100 manatdan 600, müharibə ilə əlaqədar orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslər üçün 5,6 dəfə artırılaraq 90 manatdan 500, orqanizmin funksiyalarının 61- 80 faiz pozulmasına görə (II dərəcə) əlilliyi olan şəxslər üçün 5,7 dəfə artırılaraq 70 manatdan 400, orqanizmin funksiyalarının 31- 60 faiz pozulmasına görə (III dərəcə) əlilliyi olanlar üçün 6,6 dəfə artırılaraq 50 manatdan 330 manata çatdırılıb.

Bundan əlavə, postmüharibə dövründə şəhid ailələri və müharibə iştirakçılarından ibarət 104 min nəfərə 117 min sosial ödəniş təyinatı həyata keçirilib, 11 min nəfərə 54,5 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. 453 hərbçi 472 yüksəktexnologiyalı son nəsil protezlə, 21,9 min şəxs birdəfəlik ödəmə ilə təmin olunub. 20 min 500 nəfərin məşğulluğunun təminatı həyata keçirilməklə, onlardan 10 min 300 nəfər üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə təsərrüfatları qurulub. Şəhid ailələri və qazilərə ünvanlanan müavinət və təqaüdlər də orta hesabla 2 dəfə artıb. Onlara Vətən müharibəsindən sonra 5 min 800, ümumilikdə, 14 min 600 mənzil verilib. Həmçinin qazilər müharibədən sonra 424, ümumən ötən dövrdə 7 min 600 avtomobillə təmin olunublar.

Böyük uayıdış proqramının icrası uğurla davam edir. Artıq Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış, Laçın rayonunun Zabux kəndlərinin, Laçın və Füzuli şəhərlərinin sakinlərinin bir qismi öz doğma yurdlarına köçüblər. Sakinlərin işğaldan azad olunmuş ərazilərə qayıdışı təmin edildikcə diqqət mərkəzində saxlanılan vacib məsələlərdən biri də həmin ərazilərdə məşğulluğun təmin edilməsidir. Bir müddətdir ki, Laçın, Şuşa, Füzuli, Zəngilan, Cəbrayıl şəhərləri, Laçının Zabux və Sus, Füzulinin Dövlətyarlı, Cəbrayılın Horovlu və Şükürbəyli, Qubadlının Mahruzlu və Zilanlı, Ağdərənin Talış və Suqovuşan, Ağdamın Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin sakinləri üçün peşə hazırlığı kurslarının təşkilinə başlanılıb. Kurslarda həmin ərazilərdə məskunlaşan işsizlər sənət öyrənəcəklər. Bu bölgələrdə ilkin mərhələdə 12 min şəxsin peşə hazırlığına cəlb edilməsi planlaşdırılır.

Sosial sahədə durmadan aparılan yeniliklər burada xidmətlərin şəffaf, operativ və əlçatan şəkildə təşkil olunmasına istiqamətlənib. Qarabağ Regional DOST Mərkəzində Ambulator Reabilitasiya Mərkəzinin açılması ən son yenilikdir. Ümumilikdə müasirləşən sosial infrastruktur əlilliyi olan və bənzər kateqoriyaya məxsus insanların bərpa prosesinin sürətləndirilməsinə xidmət edir.

**"Qəbələ"**